







# “Təfəkkür” universitetində qış imtahanları başladı

*Bu gün, yanvarın 7-də Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universitetində qış imtahan sessiyası başladı.*

*İmtahanların başlanmasından bir neçə gün əvvəl Universitetin Elmi Şurasının geniş iclasında 2018 – 2019-cu tədris ilinin qış imtahan sessiyasına hazırlığın vəziyyəti ətraflı müzakirə edilmişdir. Universitetin rektoru professor Rahim Hüseynov imtahanlarda şəffaflığın, obyektivliyin təmin edilməsi, tələbələrin biliyinin düzgün qiymətləndirilməsi üçün lazımi göstərişlər vermiş və bu barədə müvafiq əmr imzalamışdır. İmtahanlarda valideynlərin iştirakı üçün şərait yaradılmışdır.*

*Əvvəlki illərdə keçirilən imtahanlarda olduğu kimi bu sessiyada da imtahanların yazılı formada keçirilməsi və şifrələnməsi nəzərdə tutulmuşdur. İmtahanların gedişində ortaya çıxa biləcək problemləri dərhal həll etmək üçün Apelyasiya komissiyası və “Qaynar xətt” yaradılmışdır. Apelyasiya komissiyasına və “Qaynar xəttə” daxil olan müraciətlərin elə həmin gün həll olunması üçün əvvəlcədən lazımi tədbirlər görülmüşdür.. İmtahanların gedişindən və aldıqları qiymətlərdən narazı qalan tələbələrin müraciətlərinin nəticələrinə rektor şəxsən özü nəzarət edir. Birinci gün “İqtisadiyyat və Nəqliyyat”, “Filologiya və Biologiya” fakültələrinin 7 qrupunda imtahan keçirilmişdir.*

*Apelyasiya komissiyasına və “Qaynar xəttə” müraciət edən olmamışdır. İmtahanlarda 14 valideyn iştirak etmişdir.*